# Qəbələ rayonuna virtual tur təşkil edilib

Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mərkəzi Kitabxanası bir sıra innovativ layihələr həyata keçirir. Layihələr sırasında yer alan "Vətənimizə virtual səyahət" izləyicilər tərəfindən böyük maraqla qarşılanıb.

Layihə çərçivəsində ölkəmizin müxtəlif rayonlarına virtual turlar təşkil edilmişdir.

Növbəti hazırlanmış videoçarxda təsvir edilən səyahət turistlərin diqqətini cəlb edən Qəbələ rayonunadır. İlk olaraq videoçarxda ərazisi bir şəhər, üç qəsəbə, altmış kənddən ibarət olan Qəbələ haqqında ümumi məlumat əks olunur.

Videoçarxda Qəbələ rayonunun təbiəti ilə bağlı məlumatlar və fotolar toplanıb. Şahdağ, Tufandağ, Savalan, Bazardüzü, Yalovludağ, Qafqaz dağı kimi əzəmətli, vüqarlı dağların, Həmzəli, Rus, Şabalıd, Qəmərvan, Durca kimi gözəl mənzərə yaradan meşələrin, Türyançay, Vəndam, Dəmiraparan, Həmzəli, Bum, Qaraçay, Tikanlıçay kimi göz oxşayan çayların, Çömçə, Şonqar, Mucuq, Yeddi gözəl, Kömrü kimi bulaq və şəlalələrin fotoları ahəngdar quruluşda nümayiş olunur.

Qəbələnin flora və faunası diqqəti cəlb edir. Videoçarxda güllərin, dərman bitkilərinin fotoları ilə yanaşı, heyvanların da siyahısı təqdim olunub və onların fotoları verilib.

Videoçarxda müasir binalar və parklar, bununla yanaşı Qəbələ rayonunun iqtisadiyyatı ilə bağlı olan üzümçülük, baramaçılıq, tütünçülük, pambıqçılıq, meyvə şirələrinin istehsalı, fındıq emalı, şərabçılıq ilə bağlı fotolar da təqdim olunur.

Videoçarx Vaqif Yaquboğlunun ifa etdiyi "Qəbələ" mahnısı ilə müşayiət olunur.

Virtual səyahətləri "Facebook"-da "Kitabsevər uşaqlar" səhifəsində və eyni adlı "YouTube" kanalından da izləmək olar.

Layihə mütəmadi olaraq davam edir.

**"Qəbələ"**

# Uğurların bol olsun

Dünyanı ağuşuna alan koronavirus pandemiyasının həlı də davam etməsinə baxmayaraq,



gənc idmançılarımız yüksək ruhla, mübarizə əzmi ilə, gələcək yarışlarda da gözəl nailiyyətlər qazanmaq ümidi ilə öz üzərlərində çalışır və dövlətimizin göstərdiyi diqqət və qayğını hiss edərək onlara olan etimadı doğrultmaq üçün səy göstərirlər. Belə gənclərimizdən biri də rayonumuzun Ş. Bulqedirov adına 5 saylı orta məktəbinin şagirdi Bəşirova Gülşəndir.

Gülşən 2013-cü ildən cüdo idman növü ilə məşğuldur və indiyə qədər bu sahədə çox gözəl nailiyyətlər qazanıb, dəfələrlə respublika çempionu olub, 2019-cu ilin iyul ayında cüdo üzrə Avropa çempionatında ölkəmizi təmsil edərək III yerə layiq görülüb və nəhayət, uğurları ilə bizi sevindirən gənc idmançımız 2019-cu ilin sentyabr ayında dünya ikincisi olub. Gənc idmançımıza biz də uğurlar arzulayırıq!

## Təbiət və biz

# Mövsümi bitkilər və onların insan orqanizminə faydaları

### Tut

Tut meyvəsini hər səhər acqarına yemək qanın tərkibini çox gözəl təmizləyir.



Tut yarpağını qaynadıb suyu ilə başı yumaq və ayaqları vanna etmək orqanizmdə qan dövranının tənzimlənməsini təmin edir.

Tut yarpağını yağış suyu ilə qaynadıb saçı yumaq saça şəffaflıq gətirir, təmizləyir və ağarmasının qarşısını alır. Qanı az olanların tut qurusunu çox yeməkləri məsləhətdir.

Körpə tut yarpağının iştaha gətirmə xüsusiyyəti vardır. Körpə tut yarpağını bişirdikdən sonra bir qədər yağda qovurub duzsuz, gündə bir dəfə (2 ay fasiləsiz) yemək lazımdır. Bu həmçinin dişin dibinin qanamasının, dişlərin çürüməsinin qarşısını alır.

### Gicitkən

Gicitkəni qaynadıb baş yumaq saç tökülməsinin qarşısını alır. Yaxud ayaqları 10-15 dəqiqə gicitkən qaynadılan suda saxlamaq dırnaqların sağlamlaşmasına kömək edir.

**"Qəbələ"**

# Gənclər ədliyyə sahəsində könüllü fəaliyyətə dəvət olunur

Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir, Azərbaycan gəncliyinin hərtərəfli inkişafına, cəmiyyətin bütün sahələrində fəal iştirakına əlverişli imkanlar yaradılır. Eyni zamanda, son illər Azərbaycanda könüllülər hərəkatı geniş vüsət alıb, dövlət başçısının təşəbbüsü ilə "Könüllü fəaliyyət haqqında" Qanun qəbul olunub, minlərlə gənc müxtəlif təşkilatlarda, o cümlədən "ASAN Könüllüləri" şəbəkəsində fəaliyyətə cəlb olunmaqla cəmiyyətimizin fəal üzvlərinə çevriliblər. Ölkə başçısının müvafiq sərəncamı ilə 2020-ci il "Könüllülər ili" elan edilmişdir.

Dövlət başçısının tapşırıqlarına uyğun olaraq nazirlik tərəfindən könüllülər institutunun genişləndirilməsinə, gənclərə peşə vərdişləri aşılanmasına, onların ədliyyə sistemində təcrübə keçmələrinə daim diqqət yetirilərək Nazirliyin Kollegiyası tərəfindən 2016-cı ilin oktyabr ayında "Ədliyyə orqanlarında könüllülər institutunun təşviqi üzrə əlavə tədbirlər barədə" xüsusi qərar qəbul edilib.

Bununla əlaqədar ölkəmizin müvafiq ali təhsil müəssisələri və tələbə-gənclər təşkilatları, eləcə də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə səmərəli əlaqələr qurulub, gənclərlə çoxsaylı görüşlər keçirilərək 1200-ə yaxın könüllü ədliyyə və məhkəmə fəaliyyətinə cəlb olunub, onların bir qismi üçün Ədliyyə Akademiyasında xüsusi təlimlər təşkil olunub.

Könüllülük institutunun təşviqi gənclərdə ədliyyə fəaliyyəti ilə tanışlıq, bu sahələrdə işləməyə həvəsin artırılması, onların yaradıcı və innovativ potensialının üzə çıxarılması,məşğulluğunun təmin olunmasına şəraitin yaradılması, eləcə də kadr ehtiyatının formalaşdırılması məqsədi daşıyır.

Hazırda bu sahədə fəaliyyətin daha mütəşəkkil qaydada həyata keçirilməsi üçün gənclərə bilavasitə Nazirliyə müraciət etmək imkanı yaradılıb. Bununla əlaqədar hüquqşünaslıq və informasiya-kommunikasiya texnologiyaları ixtisasları üzrə ali təhsil müəssisələrinin bakalavr səviyyəsinin sonuncu kurslarında, habelə magistratura səviyyələrində təhsil alan gənclər ədliyyə sahəsində könüllü fəaliyyətə dəvət edilir.

Müraciətləri hr@justice.gov.az <mailto:hr@justice.gov.az> elektron ünvanı vasitəsilə və ya Nazirliyin inzibati binasında (Bakı şəhəri, İnşaatçılar prospekti) və Şəki regional ədliyyə idarəsinə (Şəki şəhəri 20 yanvar küç 94) təqdim etmək mümkündür.

Əlavə məlumatları Nazirliyin internet səhifəsindən (www.justice.gov.az <http://www.justice.gov.az/>) və (012) 538-08-85, 537-04-87 nömrəli telefonlar vasitəsilə almaq olar.

**Şəki regional ədliyyə idarəsi.**


# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

## qəzetinə

## 2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.

**Yarımillik abunə qiyməti 15 manatdır.**

***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56** (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.**

«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


## ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon Təhsil Şöbəsinin kollektivi tanınmış pedaqoq **BABAYEVA ZİYNƏT MƏMMƏDƏLİ QIZININ** vəfatı ilə əlaqədar yaxınlarına dərin hüznlə başsağlığı verir.

## İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 19 yanvar 1998-ci il tarixli 13 nömrəli qərarı ilə Şamlı kənd sakini **Ələkbərova Ariz Hüsən oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0065 nömrəli (kod 40604068) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikasının DƏDRX-nin Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən 6 yanvar 2009-cu ildən Quşlar kənd sakini **Seyidov Sracəddin İman oğluna** verilmiş MH seriyalı 0012527 nömrəli (reyestr nömrəsi 406013006162, qeydiyyat nömrəsi 1908007268) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın **dövlət reyestrindən çıxarış** və 5 yanvar 2009-cu I tarixli AA seriyalı 003571 nömrəli (ryestr nömrəsi 406013006162, inventar nömrəsi 406-9/96) **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 noyabr 1997-ci il tarixli 25 saylı qərarı ilə Kötüklü kənd sakini **Nəbiyev Nazim İsrafil oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0014 nömrəli (kod 40614038) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 noyabr 1997-ci il 25 saylı qərarı ilə Solquca kənd sakini **Eyvazov Saday Güləmməd oğluna** verilmiş JN seriyalı 0042 nömrəli (kod 40614028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Seyidqışlaq kənd sakini **Bağırov Həmzət Mədət oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 111 F nömrəli (kod 40603038) **torpağa mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası FHN DYX-nin Şimal-qərb Regional Dövlət Yanğın Nəzarət İdarəsinin yanğın təhlükəsizliyi üzrə normativ iş şöbəsinin böyük mühəndis-inspektoru **Cavadov Azad Ataş oğluna** verilmiş 1008782 nömrəli **xidməti vəsiqə** itdiyi üçün etibarsız sayılır.


Redaktor Azad Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226. Redaktor: (024) 205-19-14. Ümumi: (024) 205-15-56. e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «DZ» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1160*